# AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA MİLLİ OFTALMOLOGİYA MƏRKƏZİNİN LABORATOR-DİAQNOSTİK BÖLMƏSİ

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Laborator-Diaqnostik bölməsi bir neçə şöbədən ibarətdir. Bu şöbələrdə beynəlxalq tələblərə və standartlara cavab verən müxtəlif müasir müayinə növləri aparılır: biokimyəvi, immunoloji, mikrobioloji, morfoloji və s.



Laboratoriyanın nəzdində ümumi elektron kompüter şəbəkəsinin yaradılması sayəsində xəstələrin qeydiyyatı, biomaterialların götürülməsi və daşınması, müayinələrin aparılması və cavabların hazırlanaraq pasientlərə verilməsi avtomatlaşdırılmışdır.






Laboratoriyanın bütün şöbələrində müasir, təkmilləşmiş texniki avadanlıqlardan istifadə olunur. Bu avadanlıqlar laboratoriyanın təcrübəli mütəxəsisləri tərəfindən idarə edilir.

Mərkəzdə müxtəlif göz patologiyası ilə məşğul olan spesifik şöbələrin diaqnostik müalicəvi tələblərə müvafiq olaraq laborator müayinələr də sistemləşdirilmişdir. Burada diabetik və cərrahi əməliyyat qabağı paneli, koaqulo-qrammanın, revmotestlərin, li-pidlərin, fermentlərin, mine-ralların, hormonların müayinəsi, infeksiya törədicisinin aşkar olunması, autoimmun anti-cisimlərin, allergik statusun, hüceyrə və humoral immunitetin göstəricilərinin təyini kimi və s. analizlər aparılır.



Laboratoriyanın immunoloji bölməsində aparılan müayinələrin nəticələrinin statistik təhlili mərkəzdə müxtəlif istiqamətdə aparılan bir çox namizədlik və doktoluq dissertasiyaların fəsillərini təşkil edir və mərkəzin əməkdaşları tərəfdən elmi-praktik konfrans və konqreslərdə çıxışları zamanı, yerli və xarici mətbuatda öz əksini tapır. Məlumatların elektron bazada saxlanması dissertantların elmi işlərin aparılmasını asanlaşdırır.





Bir ilə yaxın müddətdə təşkil olunmuş ekspress-laboratoriya xidməti 24 saat ərzində fəailiyyət göstərir. Bu xidmət təcili pasientlərin diaqnostikasının və müalicəsinin gecikdirilməməsində böyük rol oynayır.

Mərkəzin Masallı regional şöbəsində də eyni qaydada laboratoriya bölməsi fəaliyyət göstərir. Bu bölmənin Masallı və ətraf bölgələrdən olan pasientlərin laborator müayinəsini aparmaqla, belə xəstələrin cərrahi və konservativ düzgün müalicəsində vacib əhəmiyyəti vardır.